# I

# UZAQGÖRƏNLİK

Matros Lonqren anasına öyrəşən uşaqdan daha artıq bağlandığı "Orion" adlı ikidorlu, üç yüz tonluq möhkəm yük gəmisindəki işindən ayrılmalı oldu.

Bu, belə olmuşdu. Lonqren aylarla dənizdə olar, çox təsadüfi hallarda evə dönər, qayıdanda həmişə arvadı Merinin qapının kandarında durub ona uzaqdan əl elədiyini görər, bir az yaxınlaşanda isə təngnəfəs ərinin qarşısına qaçar, boynuna sarılardı. Sonuncu gəlişində onu qarşılamağa çıxan arvadını görmədi. Evə girəndə isə uşaq çarpayısının yanında dayanan – bu, Lonqrenin evində yeni bir predmet idi – və onu həyəcanla qarşılayan qonşu qadını gördü.

– Ona qulluq elədiyim artıq üç aydır, ağsaqqal, – qonşu qadın dedi, – bax gör, hələ necə qızın var.

Bir andaca üzünə ölüm sarılığı çökən Lonqren çarpayıya sarı əyildi. Orada gözünü onun uzun saqqalına dikib baxan səkkizaylıq bir körpə gördü. Sonra oturdu, beyni keyləşdi və bığlarını burmağa başladı. Bığları yağışa düşübmüş kimi yaş idi.

– Meri nə vaxt ölüb? – o, qonşu qadından soruşdu.

Qadın ona baş verən qəmli tarixçəni anlatmağa başladı. Arabir, çağanın qığıltısı ilə kəsilən söhbətində o, Merinin artıq cənnətdə olduğundan inamla danışırdı. Lonqren baş verənləri sonadək dinləyəndən sonra qonşu qadının anlatdığı cənnət ona taxtadan tikilmiş anbardan azca geniş və işıqlı olan bir yer kimi gəldi və düşündü ki, əgər indi onlar üçü də bir yerdə ola bilsəydi, o zaman sadə lampa işığının aydınlatdığı bu otaq arvadı üçün o uzaq və anlaşılmaz ölkədən daha sevimli olardı.

Üç ay bundan qabaq gənc ananın dolanışığı çox ağırlaşıbmış. Lonqrenin sonuncu dəfə evdə olanda verdiyi pulun çox hissəsi çətin keçən doğuşdan sonra arvadının və körpənin müalicəsinə xərclənibmiş. Nəhayət, pulu tamam qurtardığından, Meri dolanışığını bir təhər qura bilmək üçün Mennersdən borc pul almaq istəyibmiş. Axı meyxanası və dükanı olan Menners kənddə ən varlı adam sayılırdı.

Axşam saat altıda onun yanına gedən Meri bir saat sonra qonşu qadına Lissə gedəcəyini deyib. Ağlamış və sarsılmış bir durumda olan Meri nişan üzüyünü girov qoyub pul götürmək üçün şəhərə gedirmiş. Merinin deməsinə görə, Menners borc pul verməyə razı imiş, ancaq bunun qarşılığında onunla bir yatağa girməyi tələb eləyirmiş. Bununla razılaşmayan Meri evə əliboş qayıtmalı olub.

– Evdə bircə tikə də yeyiləcək bir şey qalmayıb, – deyə Meri qonşu qadına deyib. – Ərim qayıdana kimi qızımla bir təhər keçinmək üçün şəhərə gedib bir az borc pul götürüm, O gecə çox soyuq və küləkli bir hava olduğundan qonşu qadının Merini gecə vaxtı şəhərə getməkdən çəkindirmək üçün dilə tutması nəticəsiz olub. O, Meriyə deyib: “Yağış

səpələyir, külək də getdikcə güclənir, deyəsən bu külək indicə leysan yağış gətirəcək. Sən bu havada islanıb özünü sətəlcəm eləyərsən”. Ancaq gənc qadın heç nəyə baxmayıb və gecə ilə şəhərə yola düşüb.

Dəniz qırağında yerləşən Kaperna kəndindən şəhərə ayaqla gedib qayıtmaq üçün ən azı üç saat vaxt lazım idi. Qonşu qadının sözünə qulaq asmayan Meri qadının ərzaq köməyi təklifinə belə cavab veribmiş: “Mən daha sizin çiyninizə yük olmaq istəmirəm. Üstəlik, kənddə borc kimi çörək, çay və ya un almadığım ailə qalmayıb. Üzüyü girov qoyub pul götürəcəyəm, qurtardı getdi”.

Elə həmin gecə şəhərə gedib qayıdan Meri ertəsi gün qızdırma və sayıqlama içində yatağa düşüb. Soyuq havada yola çıxdığı, üstəlik yağışda islandığı üçün hər iki ciyəri bərk soyuqlayaraq sətəlcəm olub, Qonşu arvadın şəhərdən çağırdığı həkim belə deyib. İki həftə sonra Lonqrenin evindəki ikinəfərlik çarpayıdakı ikinci yer də boşalmış və qonşu qadın onun evinə köçərək uşağa dayəlik eləyib, yemək-içməyini verməyə başlayıb. Qonşu qadın dul olduğundan və uşağı olmadığından, bütün bu işlər onun üçün çətinlik törətməyib. O, onsuz da təklikdən darıxdığından körpə ilə başını qatmaq ürəyincə olub.

Beləcə Lonqren ertəsi gün şəhərə gedib gəmi rəhbərliyi ilə haqq-hesabını qurtarmış, yoldaşları ilə vidalaşmış və körpə Assolu böyütməyə başlamışdı. Nə qədər ki, qızcığaz yetərincə yaxşı yeriyə bilmirdi, qonşu dul qadın matrosun evində yaşayır, yetim qıza anasını əvəzləyirdi. Ancaq Assol yıxılmadan yeriməyi öyrənib, qapının kandarından özü sərbəst keçməyi bacaran kimi Lonqren qonşu qadına elədiyi

kömək üçün dərin təşəkkürlərini bildirib, qətiyyətlə, bundan sonra qızını təkbaşına böyüdəcəyini demiş və o gündən dul kişinin yalqız həyatını yaşamağa başlayaraq, bütün düşüncə, ümid və sevgisini bu kiçik varlığın böyüməsinə və tərbiyəsinə həsr etmişdi.

Onillik gəzərgi həyatdan sonra əlində çox az pul qaldığından, vaxt itirmədən, işləməli olur. Çox keçmədən, şəhərin dükanlarında onun düzəltdiyi kiçik qayıq, kater, bir və iki göyərtəli yelkənli gəmilər, kreyserlər və paroxodlardan ibarət oyuncaqlar gözə dəyməyə başlayır. Beləliklə, o, həm, yaxşı bələd olduğu predmetlərin oyuncaqlarını düzəldir, həm də bu vaxt sanki öyrəşdiyi dənizçilik həyatı ilə bağlı duyğularını yenidən yaşamış olurdu. Bu üsulla Lonqren qənaətlə yaşaya biləcəyi qədər pul qazana bilirdi. Təbiəti etibarı ilə qaradinməz olan matros arvadı öləndən sonra daha qapalı və adamayovuşmaz olmuşdu. Doğrudur, bayram günlərində bəzən o, meyxanada görünər, ancaq burada oturmaz, piştaxtanın arxasındaca, tələsik, bir stəkan araq içər, tanışlara "hə", "yox", "salam", "hələlik", "yavaş-yavaş" kimi qısa cavablar verib gedərdi.

Qonaqlara qarşı tam dözümsüzlük sərgiləyərdi. Doğrudur, onları qovmaz, ancaq elə davranardı ki, qonaq gələn adamlar özləri çıxıb getmək üçün bir bəhanə düşünməli olardılar.

Özü də kimsəyə qonaq getmədiyindən onunla yerliləri arasında yadlıqdan doğan bir soyuqluq yaranmış və Lonqrenin oyuncaq düzəltmək sənəti kənd həyatından asılı olmasaydı, ətrafı ilə belə zəif ünsiyyət onu çox çətinə sala bilərdi. O, evə lazım olan əşyaları və ərzağı şəhərdən alırdı

– Menners ona haçansa bir qutu kibrit belə satdığını deyə bilməzdi. Bütün ev işlərini özü görər və kişilər üçün çətin olan qız uşağını təkbaşına böyütmək qayğısını da bacardığı kimi yoluna qoyardı.

Artıq beş yaşına çatan, atasının dizləri üstündə oturub jiletinin düyməlꝋrini əlləşdirən, yaxud yarımçıq bildiyi matros mahnılarını oxumağa çalışan Assoluna baxanda atasının üzündə kövrəklik duyulan bir təbəssüm oyanardı. Uşağın dilində "r" səsinin yanlış deyilişi ilə oxunan bu mahnılar onun gözləri önünə vaxtı ilə, mavi lentlə bəzənərək rəqs eləyən ayını gətirərdi.

Bu vaxt gözlənilmədən, elə bir hadisə baş verdi ki, bununla bağlı olaraq atanın üzərinə düşən kölgə qızından da yan keçmədi.

O ilin yazı çox pis gəldiyindən əksər günlərdə hava qışda olduğu kimi, olduqca soyuq keçirdi. Üç həftə olardı ki, adamı qılınc kimi kəsən soyuq şimal küləyi sahili döyəcləyirdi.

Fırtınadan qorumaq üçün dənizdən çıxarılaraq ağzı üstə ağ sahil qumları üzərinə düzülmüş balıqçı qayıqlarının uzun sırası uzaqdan nəhəng balıqların kürəyini andırırdı. Belə pis havada kimsə balıq tutmaq üçün dənizə çıxmağa ürək eləməzdi. Yeganə bir küçəsi olan kəndin içində evdən bayıra çıxan adamları çox az hallarda görmək olardı. Üfüqün boşluğundan əsib sahilboyu təpəlikləri adlayan güclü və soyuq külək "açıq havanı" amansız işgəncə meydanına çevirmişdi. Kəndin gün boyu işləyən soba borularından qalxan tüstü burumları damların üzərindən ucalıb havaya qarışırdı.

Ancaq Kapernanın günəşin havanı qızılı şüaları ilə doldurduğu vaxtlarından daha çox belə soyuq şimal küləyi əsən

günlərində Lonqren isti evindən çıxıb gəzinməyi sevərdi. Bu zaman o, sahildəki hündür dirəklər üzərində qurulmuş körpünün üstünə qalxar, onun dənizə yaxın qırağında dayanıb, uzun-uzadı, küləyin üfürüb közərtdiyi çubuğunu tüstülədər, sahilə çırpılıb köpüklənən dalğalara baxar, uzaq üfüqlərdən bir-birini qovaraq gələn, bir-biri ilə qovuşaraq fantastik fiqurlar yaradan bu səs-küylü dalğaların dənizi necə çalxalamasına tamaşa edərdi. Suyun qanadlanmasına bənzəyən dalğaların yaratdığı uğultu və hay-küy Lonqrenin üzgün ruhunu keyləşdirib ağrı-acılarını azaldar, ona yandırıcı insan kədərini dumanlı qüssəyə çevirən yuxusayağı bir təskinlik gətirərdi.

Belə günlərin birində Mennersin on iki yaşlı oğlu Xin atasının körpüyə bağlanmış qayığının dirəklərə çırpılıb korpusunu zədələməyə başladığını görmüş, qaçaraq bunu atasına xəbər vermişdi. Fırtına yenicə başlamışdı. Həmin gün Menners qayığı sahilə çıxarmağı unutmuşdu. Tələsik sahilə cuman Menners, təbii ki, körpünün qırağında, arxası ona sarı dayanıb çubuğunu tüstülədən Lonqreni də görmüşdü. Sahildə onların ikisindən başqa kimsə-filan da yox idi.

Menners körpünün ortasına qədər gedib oradan quduz kimi çağlayan suya endi və qayığı dirəyə bağlayan ipi açdı və qayığın içində ayaq üstə dayanaraq, körpünün dayaqları olan dirəklərdən tuta-tuta onu sahilə yaxınlaşdırmağa başladı. Avar götürməmiş Mennersin ayağı birdən büdrədiyi üçün növbəti dirəkdən yapışmağa macal tapmadı və küləyin güclü həmləsi qayığın burnunu okeana tərəf çevirdi. Artıq Menners bütün boyu ilə dartınsa da, ən yaxın dirəkdən belə tutmağa əli çatmazdı. Külək və dalğalar qayığı yırğalaya-